Mayın 19-da təhsil naziri Misir Mərdanov Cənubi Koreya Respublikası “DAEWOO” Şirkətinin prezidenti cənab Younq-Von Kanqın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Öncə nazir qonaqları Təhsil Nazirliyində görməkdən məmnunluq duyduğunu bildirib və onları səmimi salamlayıb. Nazir Koreya Respublikası Baş nazirinin ölkəmizə səfərinin uğurlu nəticələr verəcəyini əminliklə vurğulayıb.

Sonra Misir Mərdanov Koreya ilə Azərbaycan arasında olan əlaqələrin sürətlə inkişafından və səmərəli əməkdaşlıqdan söz açıb. Ötən ilin avqustunda “DAEWOO” Şirkəti ilə Təhsil Nazirliyi arasında imzalanmış Memoranduma əsasən ölkəmizdə Peşə Təhsili Mərkəzinin yaradılması istiqamətində aparılan işləri qeyd edən nazir onu da vurğulayıb ki, bu təhsil ocağının açılması Azərbaycan üçün prioritet məsələdir. Nazir mərkəzdə iqtisadiyyatın müxtəlif sahələri üzrə ixtisaslı kadrların hazırlanması, peşə təhsili sistemində çalışan işçilərin biliklərinin artırılması və digər istiqamətdə nəzərdə tutulan tədbirlərdən danışıb.

Cənab Younq-Von Kanq səmimi qəbul üçün nazirə təşəkkür edib. Eyni zamanda qonaq Peşə Təhsili Mərkəzinin yaradılması layihəsi üzrə görüləcək işlərdən danışıb, qısa zaman ərzində bu layihənin həyata keçiriləcəyini əminliklə vurğulayıb. Öz ölkəsində peşə təhsili sahəsində qazanılan uğurlardan bəhs edən qonaq bu nailiyyətləri ölkəmizlə paylaşmağa hazır olduqlarını bildirib və mövcud layihənin ikitərəfli əlaqələrin qurulmasına şərait yaradacağını diqqətə çatdırıb.

Səmimi və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə müvafiq sahə üzrə bir sıra məsələlər müzakirə edilib.